Təqvim yada salır

# Dünya elminin azərbaycanlı dahisi – Lütfi Zadə

**Dünən dünya şöhrətli azərbaycanlı alim, görkəmli elm xadimi, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin doğum günü idi. 96 yaşında dünyasını dəyişmiş soydaşımızın anadan olmasının 102-ci ildönümü ölkəmizdə müxtəlif anım tədbirləri ilə yad edildi.**



Dahi azərbaycanlının doğum günündə onun elmi istiqamətinin davamçıları, ölkənin elmi-mədəni ictimaiyyətinin təmsilçiləri və Zadə fenomeninin vurğunları Fəxri xiyabana gələrək unudulmaz soydaşımızın məzarı üstünə əklil və gül dəstələri qoydular, xatirəsinə dərin ehtiramlarını ifadə etdilər.

**Lütfi Zadə irsinin varisi, onun elmi-nəzəri fəaliyyət istiqamətini ölkəmizdə və dünyada uğurla davam etdirən AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyev anım mərasimindən sonra qəzetimiz üçün açıqlamasında bildirdi:**

–XX əsr fundamental və tətbiqi elminə inqilabi yenilik gətirmiş, bununla da bəşəri elmin barmaqla sayılan korifeyləri sırasında əbədi yer almış Lütvi Zadənin azərbaycanlı olması xalqımıza böyük başucalığı, milli öyünc bəxş edib. Zadə Bakıda doğulmuş, yetkinlik yaşınadək burada yaşamışdı. Tale elə gətirmişdi ki, onun dünya səviyyəli alim kimi yetişməsi və bəşəriyyətə misilsiz xidmət göstərməsi Azərbaycandan kənarda baş vermişdi. Lakin o heç vaxt öz Vətənini unutmamış, qəlbində doğma yurda davamlı sevgi yaşatmışdı. Zadə hələ sovet rejiminin sərt zamanında Moskva konfransı zamanı təkid göstərərək Bakıya gəlmişdi, Vətənini isti bir qəlblə ziyarət etmişdi.

Sonrakı illərdə tale məni bu insanla nəinki dost-qardaş, həm də ata-bala səviyyəsində yaxın elədi. İllər boyu elmi fəaliyyət yolunda qoşa addımladıq. Onun Azərbaycan sevgisi misilsiz və doyumsuz idi. Xalqımız da Zadənin fövqəladə elmi yeniliklərindən xəbər tutub onun uğurlarını heyranlıqla izləyirdi. Azərbaycanda Lütfi Zadə sevgisi qarşısıalınmaz bir istəklə onun varlığına qovuşmağa can atırdı.

Birgə fəaliyyətimiz bu sevgiləri bir-birinə qovuşdurmaq üçün mötəbər bir kanal açmışdı. Bu əlaqə onu ölkəmizdə layiqincə tanıtdı, haqqında film, televerilişlər çəkildi, kitablar, məqalələr yazıldı. Bütün bunlar ona ruh verirdi, məmnunluq yaradırdı. Azərbaycanın müstəqillik qazanması, şöhrətinin dövlət səviyyəsində dəyərləndirilməsi ustadımı sevindirib göylərə qaldırmışdı, macal tapan kimi ölkəmizi yenidən ziyarət etmişdi.

Bu sevginin məntiqi nəticəsi oldu ki, dahi soydaşımız vəsiyyətində əbədiyyət ünvanı kimi tərəddüdsüz olaraq doğulduğu Bakını seçdi. Zadənin Fəxri xiyabandakı məzarı bu dünya korifeyinin Azərbaycana məxsusluğu həqiqətinə vurulmuş təkzibedilməz möhürdür.



**Lütfi Zadənin yetirməsi və davamçısı Rafiq Əliyev ustadının elmi-nəzəri irsini belə dəyərləndirdi:**

–Dünyanın dahilərin çiynində dayandığı qənaətini özüm üçün bir aksiom saymışam. Belə dahilərdən biri də Lütfi Zadədir. “Zadə bütün zamanların dahisidir”– dünyada hakim olan bu düsturun tam dürüstlüyünü qəbul edərək onun isbatı üçün bir neçə kəlmə demək istəyirəm. “Fərdilik” nöqteyi-nəzərinə uyğun olaraq, dahi o kəsdir ki, say-seçməlik əlamətini özündə təcəssüm etdirir, öz zəmanəsini qabaqlayır və onun nailiyyətləri layiqincə qiymətləndirilir. Bütün hallarda dahi olan şəxs cəmiyyətin fövqündə durur.

Əgər Lütfi Zadə XX əsrdə dünyaya gəlməsəydi, yəqin ki, qeyri-səlis çoxluqlar nəzəriyyəsi 1965-ci ildə yox, 2065-ci ildə yaranardı. Aristotelin binar məntiqi, Lukaseviç və digər alimlərin çox qiymətli məntiqləri nə vaxt təklif edilmis olsa da belə, qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq nəzəriyyələrinin yaradılmasının öhdəsindən təkcə Zadə gələ bilərdi. Zadənin yaradıcılıq gücü yalnız onun fitri istedadında deyil, eyni zamanda, prosesləri güclü və dərin şəkildə əsaslandırma bacarığında idi.

Onun qeyri-səlis məntiqi əhatə dairəsinə və yayılma sürətinə görə elmdən çox dini xatırladır. Mübaliğəsiz, bu gün dünyanın bütün ölkələrində insanlar bu və ya digər formada, yəni universitet və ya orta məktəb vasitəsilə, yaxud da məişət məhsulları alarkən qeyri-səlis məntiqlə təmasda olurlar. Lütfi Zadəni 1965-ci ildən yaxından tanıyan bir şəxs kimi onun qədər yüksək istinad göstəricisinə malik alim tanımıram. Zadədə orijinallığa və yeniliyə, həmkarları tərəfindən bir peşəkar kimi tanınmağa tələbat güclü idi. Yüksək inkişaf etmiş estetik duyum, gözəlliyə və ahəngdarlığa həssaslıq ona məxsus hisslər idi.

Sonda xatırladaq ki, Lütfi Zadə (Lütfəli Rəhim oğlu Ələsgərzadə) 1921-ci il fevralın 4-də Bakı şəhərində anadan olub. O, 1944-cü ildə Tehran Universitetini elektrik mühəndisliyi ixtisası üzrə bitirib. 1944-cü ildən 1959-cu ilə qədər ABŞ-ın Massaçusets Texnologiya İnstitutunda və Kolumbiya Universitetində magistr və doktorluq elmi dərəcələrini alıb. 1959-cu ildən Berkli Universitetində çalışıb, 1963-cü ildən isə elektrik mühəndisliyi və kompüter elmləri kafedrasına rəhbərlik edib, həmin universitetdə ömürlük professor və “Soft Computing” İnstitutunun direktoru kimi fəaliyyət göstərib. O, Avrasiya Akademiyasının qurucu üzvlərindən biri olub. Lütfi Zadə süni intellekt sahəsində müəssisənin ömürlük professoru seçilmiş yeganə şəxs, Amerikadakı Azərbaycan diaspor təşkilatlarının fəxri sədri idi.

Lütfi Zadə 2017-ci il sentyabrın 6-da vəfat edib, cənazəsi ABŞ-dan Azərbaycana gətirilərək I Fəxri xiyabanda dəfn edilib. 2021-ci ildə dünya şöhrətli elm xadimi Lütfi Zadənin 100 illiyi ölkəmizdə təntənə ilə qeyd edilib.

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***